

# “Biz bundan sonra bu torpaqlarda əbədi yaşayacağıq”

*Bizim qələbəmiz tarixi qələbədir. Biz tarixi ədaləti bərpa etdik. Biz öz haqlarımızı bərpa etdik, biz şəhidlərimizin qanını aldıq, biz düşməndən qisas aldıq və qayıtmışıq. İndi isə bərpa işləri gedir və gedəcək. Mən demişəm, biz bu bölgəni – Qarabağı cənnətə çevirəcəyik. Artıq bütün göstərişlər verilib. Bütün işlər görülür, planlı şəkildə görüləcək və biz bundan sonra bu torpaqlarda əbədi yaşayacağıq. Heç kim bizi bundan sonra bu torpaqlardan tərpədə bilməz.*

*İlham ƏLİYEV*
*Azərbaycan Respublikasının Prezidenti*

❒ ***Azərbaycan Ordusunun keçən il sentyabrın 27-də işğalçı Ermənistan silahlı qüvvələrinə qarşı başladığı əks-hücum əməliyyatı ölkəmizin tam qələbəsi və düşmənin kapitulyasiyası ilə nəticələndi. Bununla da Vətən müharibəsi başa çatdı. Azərbaycan bu döyüşdə parlaq qələbə qazandı, işğal aldındakı torpaqlarımızı yağılardan təmizlədi. Müzəffər ordumuzun hər bir əsgəri, hər bir zabiti müharibədə qəhrəmancasına döyüşdü, düşmənin torpaqlarımızdan qovulmasında müstəsna xidmətlər göstərdi, yaralandı, öz həyatını risk altına atdı, lakin məqsədi uğrunda inadından dönmədi, əzmlə, cəsarətlə zəfər yürüşünü son nəticəyə qədər davam etdirdi.***

### Azərbaycanın zəfər yürüşünün 44 günü

Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev çıxışlarının birində deyib: “İkinci Qarabağ müharibəsi tarixdə Azərbaycanın şanlı qələbəsi kimi qalacaq. Bu qələbənin qazanılmasında bütün xalqımız birlik, həmrəylik göstərmişdir. Atılan addımlar bütün bir məqsədi güdürdü ki, qısa müddət ərzində az itkilərlə düşmənə elə sarsıdıcı zərbə vuraq ki, düşmən məcbur olub torpaqlarımızdan çıxsın. Döyüş meydanında qazanılmış qələbələr siyasi müstəvidə də qələbənin qazanılmasını şərtləndirdi. Əgər döyüş meydanında biz bu qələbəni qazanmasaydıq, inanmıram ki, işğalçı qalan torpaqlardan çıxacaqdı. Necə ki, torpaqlarımızı 30 ilə yaxın müxtəlif yollarla işğal altında saxlamağa can atan düşmən bu işğalı əbədi etmək istəyirdi, biz danışıqlar yolu ilə də heç bir nəticə əldə edə bilməzdik. Biz bu müharibəni şəhidlərimizin canı-qanı bahasına, hərbçilərimizin rəşadəti hesabına, dövlətimizin siyasəti hesabına qazanmışıq”.

Dövlətimizin başçısı Vətən müharibəsində parlaq qələbəmizin xalqımızın tarixində əbədi qalacağını, Azərbaycanın həm döyüş meydanında, həm də danışıqlar masası arxasında istədiyinə nail ola bildiyini vurğulayıb. O, Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı və Şuşa şəhərlərinin hərbi güc hesabına azad edildiyini, bayrağımızın o dağma yurd yerlərində sancıldığını diqqətə çatdırıb. Bununla da bütün dünya Azərbaycanın güc-qüdrətinin şahidi olub.

Ali Baş Komandan İlham Əliyev, həmçinin xatırladıb ki, döyüşlərin şiddətli xarakter almasına, düşmənin müqavimət göstərməsinə baxmayaraq, Azərbaycan Ordusu 44 gün ərzində peşəkarlıq, qəhrəmanlıq nümayiş etdirib.

Azərbaycan Prezidentinin vurğuladığı kimi, bu peşəkarlıq, qəhrəmanlıq nümunəsi sayəsində, cəsarət, hünər, əzm hesabına 44 gün ərzində 300-ə yaxın kənd, 5 şəhər, 4 qəsəbə, çoxsaylı strateji yüksəkliklər azad olunub. Düşmənin texnikası tam məhv edilib, canlı qüvvəsinə ciddi zərbə vurulub. Ermənistan ordusu darmadağın edilib, atəşkəs ərəfəsində isə artıq vahid komandanlığı olmayan, müqavimət qabiliyyətini itirən, başıpozuq dəstələrə çevrilib.

Azərbaycan Dağlıq Qarabağın incisi olan Şuşa şəhərini, onun ardınca bir gündə 70-dən artıq kəndi, 8 strateji yüksəkliyi işğalçıdan təmizləməklə, Ermənistanı diz çökdürüb və kapitulyasiyaya məcbur edib.

Beləliklə, sentyabrın 27-dən başlanan müharibə sonda Azərbaycanın tam qələbəsi ilə nəticələnib. Otuz il ərzində aparılan danışıqlar prosesində düşmən dövlət reallaşdırmaq istədiyinin heç birini həyata keçirə bilməyib, Dağlıq Qarabağın statusunun müəyyənləşdirilməsi gerçəkləşməyib, bu bölgədə yeni erməni dövlətinin yaradılması planları isə tamamilə alt-üst olub.

Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusu canı, qanı bahasına Ermənistan Ordusunun məğlubedilməzliyi barədə illərdən bəri formalaşdırılan mifi də 44 günə dağıdıb, bütün qüvvələri Azərbaycan xalqının iradəsi ilə hesablaşmağa vadar edib, Azərbaycanın ərazi bütövlüyünü gerçəkləşdirib. Azərbaycanın razılığı olmadan Dağlıq Qarabağla bağlı heç bir qərar verilə bilməyəcəyini sübut edilib. İnzibati ərazisi xeyli böyük olan Kəlbəcər, Ağdam və Laçının şəhid vermədən, qan tökülmədən geri qaytarılması da reallaşıb. Şuşa şəhəri, Xocavəndin bir çox kəndi, o cümlədən, Hadrut qəsəbəsi, Kəlbəcər, Ağdam və Laçının geri qaytarılması isə Dağlıq Qarabağa gedən bütün strateji yolların, yüksəkliklərin, kommunikasiya xətlərinin tamamilə Azərbaycan Silahlı Qüvvələrinin nəzarətinə keçməsi ilə yekunlaşıb.

Bundan sonra, şübhəsiz ki, məcburi köçkünlərin dogma yurdlarına geri dönməleri ilə demoqrafik balans da tamamilə Azərbaycanın xeyrinə dəyişəcək. Onu da vurğulayaq ki, Azərbaycanın parlaq qələbəsi ilə Ermənistanın “DQR”-in öz müqəddəratını təyinetmə ilə əlaqədar iddiaları qüvvədən düşüb, bütün məsələlərin yalnız respublikamızın ərazi bütövlüyü prinsipinə əsasən həlli gerçəkləşib.

### Ordumuz Vətən müharibəsində müasir döyüş tarixinin şanlı səhifəsini yazdı

Dövlət başçısı İlham Əliyevin prezidentlik fəaliyyətinə başladığı ilk gündən diqqət yetirdiyi prioritet istiqamətlərdən biri də hərbi quruculuq məsələsi oldu. Ölkə rəhbəri ötən illər ərzində bu vədinə sadiq qaldı, respublikamızda ordunun gücləndirilməsi ilə bağlı olduqca mühüm işlər gördü, silahlı qüvvələrimizdə keyfiyyət və kəmiyyət dəyişikliklərinin yaranmasına nail oldu.

Azərbaycan Ordusu bu güc-qüdrətini 2016-cı ilin aprelində sübut etdi. Həmin ayın 2-də Ermənistan ordusunun təxribatlarına cavab olaraq, silahlı qüvvələrimiz sürətli əks-hücum əməliyyatı ilə düşməni ağır məğlubiyyətə uğradaraq, Füzuli, Cəbrayıl və Ağdərə rayonlarının işğal altındakı ərazilərinin 2 min hektardan çox hissəsini azad etdi. Həmçinin minlərlə hektar ərazi Azərbaycan Ordusunun tam nəzarətinə keçdi. Ordumuz dördgünlük Aprel döyüşləri ilə xalqımıza qələbə sevinci yaşatdı.

Azərbaycan Ordusu daha bir uğuru Aprel döyüşlərindən iki il sonra – 2018-ci ilin mayında Günnüt zəfəri ilə qazandı. Bu uğurlu əməliyyat nəticəsində Naxçıvan Muxtar Respublikasının 11 min hektardan artıq ərazisi və Şərur rayonunun Günnüt kəndi düşməndən azad edilərək dövlət sərhədi boyunca əlverişli mövqelər Azərbaycan Ordusunun nəzarəti altına keçdi.

Ermənistan bütün bu dərslərdən nəticə çıxarmadı. Bu il iyul ayının 12-16-da düşmən Azərbaycan–Ermənistan dövlət sərhədinin Tovuz rayonu istiqamətində daha bir məqsədyönlü təcavüz hərəkəti törətdi. Bu silahlı hücum təsadüfi bir hərbi insident olmayıb, Ermənistanın Azərbaycan Respublikasına qarşı qanunsuz güc tətbiqinin növbəti açıq təzahürü kimi diqqət çəkdi və ölkəmizin yeni ərazilərini zəbt etmək məqsədi daşıdığı aydın oldu.

Bədxah düşmənin təcavüzünün bu dəfə də silahlı qüvvələrimiz tərəfindən layiqincə cavablandırılmasına baxmayaraq, Ermənistan yenə növbəti işğalçı siyasətini həyata keçirmək iddiasından əl çəkmədi. Bunun üçün hazırlıqlara başlayıb, külli miqdarda silah və sursat tədarük edib, qüvvələrini təmas xətti boyunca cəmləşdirdi. Hətta Azərbaycana qarşı müharibə aparmaq üçün on minlərlə mülki şəxsdən ibarət hərbi dəstələr yaradıldığını elan etdi.

Yeri gəlmişkən, ötən müddətdə ordumuz tərəfindən aparılan əks-hücum əməliyyatlarının ən böyük nəticələrindən biri o oldu ki, silahlı qüvvələrimiz mənəvi-psixoloji, döyüş ruhu, sosial, ictimai, texniki-təchizat, silah-sursat, peşəkarlıq baxımdan Ermənistan ordusunu müqayisəolunmaz dərəcədə qabaqladığını təsdiqlədi və təbii ki, düşmən də bu üstünlüyü tam anladı. Erməni ictimaiyyəti bu prosesdə gerilədiyini, uduzduğunu açıq-aydın hiss etdi.

Beləliklə, silahlı qüvvələrimizin kompleks inkişafı və modernləşdirilməsi ilə bağlı son 17 ildə həyata keçirilən hərbi siyasətin səmərəliliyi 44 günlük Vətən müharibəsində öz təsdiqini tapdı. Ordumuz düşmənin uzun illər ərzində qurduğu, keçilməz hesab edilən müdafiə xətlərini qəhrəmanlıqla yardı, Ermənistanın hava hücumundan müdafiə sistemi və hərbi hava qüvvələrini sıradan çıxartdı. İşğalçı qüvvələrə ağır zərbələr endirdi, onların çoxlu sayda canlı qüvvəsi və hərbi texnikasını məhv etdi.

*(ardı 5-ci səhifədə)*

# “Biz bundan sonra bu torpaqlarda əbədi yaşayacağıq”

*(əvvəli 1-ci səhifədə)*

Prezident, Ali Baş Komandan İlham Əliyev bununla bağlı fevralın 14-də Güləbird kəndində Azərbaycan bayrağını qaldırdıqdan sonra çıxış edərək, deyib: “Biz erməni faşizmini məhv etmişik. Düşməni öz doğma torpaqlarımızdan qovmuşuq. Onları torpaqlarımızdan rədd etmişik. Ermənistan ordusunu, demək olar ki, məhv etmişik. Ermənistan ordusu yoxdur, dağılıb. Həm texnika dağılıb, həm canlı qüvvə dağılıb”.

Azərbaycanın bu möhtəşəm qələbəsi Prezident İlham Əliyevin uzun illər ərzində apardığı uğurlu xarici və daxili siyasətlə bərabər, ordu quruculuğu sahəsində fədakar fəaliyyətinin məntiqi nəticəsidir. Dövlətimizin başçısı bu barədə çıxışlarında dönə-dönə bildirib ki, bu gün bir çox ölkələrdə bizim hərbi təcrübəmiz öyrənilir. Hazırda bu məsələ ilə məşğul olan bir çox ekspertlər vurğulayırlar ki, Azərbaycan XXI əsrin müharibəsini aparıb. XXI əsrdə ilk dəfə olaraq, bu miqyasda və bu səmərə ilə qısa müddət ərzində tarixi nailiyyətlər əldə edilib.

## Azərbaycan Qarabağın bərpasında da gücünü bütün dünyaya nümayiş etdirəcək

İşğaldan azad edilən ərazilərdə təcavüzkar Ermənistan tərəfindən 30 il ərzində əsl vandalizm aktı törədilib, bütün şəhər və kəndlərimiz tamamilə dağıdılıb, Qarabağın ekologiyasına çox ciddi ziyan vurulub.

Hazırda düşməndən təmizlənən yaşayış sahələrinin yenidən qurulması, bərpası qarşıda duran ən mühüm məsələlərdən biridir. Bu ərazilərdə gerçəkləşdiriləcək abadlıq-quruculuq işlərinin miqyası da, şübhəsiz ki, çox böyükdür.

Prezident, Ali Baş Komandan İlham Əliyev Güləbird kəndində Azərbaycan bayrağını qaldırdıqdan sonra çıxış edərək, deyib: “Bərpa işləri arasında elektrik enerjisi təchizatı, əlbəttə ki, xüsusi yer tutur. Bu məqsədlə, müharibədən dərhal sonra ilk günlərdən biz bu işlərlə məşğul olmağa başlamışıq. İlk növbədə, Şuşa şəhərini elektrik enerjisi ilə təchiz etmək üçün əməli addımlara start verilmişdir və birinci mərhələ başa çatıb. “Azərişıq” artıq Şuşa şəhərinə elektrik xətlərini çəkib. Şuşa şəhərini dayanıqlı elektrik enerjisi ilə təmin etmək və ondan sonra şəhərin inkişafını təmin etmək üçün “Azərenerji” Səhmdar Cəmiyyəti də Şuşa şəhərinə yüksəkgərginlikli xətləri çəkir və Şuşa şəhərində elektrik yarımstansiyası inşa edir”.

Azərbaycan Prezidenti nitqində Laçın rayonu işğaldan azad olunandan ay yarım sonra artıq Güləbird kəndində su elektrik stansiyasının istismara verildiyini, bu stansiyanın generasiya gücünün 8 meqavat təşkil etdiyini vurğulayaraq, bununla da ərazidə generasiya güclərinin yarandığını bildirib. “Güləbird” Su Elektrik Stansiyası, təxminən, 7 min nəfər əhalinin elektrik enerjisi ilə təminatında mühüm rol oynayacaq. Burada istehsal olunan elektrik enerjisi Qubadlı rayonunun Xanlıq kəndini, Laçın rayonunun cənub hissəsini və ərazidə yerləşən digər infrastruktur layihələrini elektrik enerjisi ilə təmin edəcək.

Xatırladaq ki, Prezidentin tapşırığına əsasən, ən qabaqcıl beynəlxalq təcrübə nəzərə alınmaqla, Qarabağ regionunda bərpaolunan enerji mənbələrindən istifadə, enerji səmərəliliyi, ekoloji təmiz texnologiyalar, o cümlədən nəqliyyat vasitələrinin tətbiqi və digər məsələləri əhatə edəcək “Yaşıl zona”, yaxud “Yaşıl məkan” konsepsiyasının hazırlanmasına başlanılıb. Bu istiqamətdə Beynəlxalq Bərpaolunan Enerji Agentliyi ilə müzakirələrin aparılması diqqət mərkəzində saxlanılıb.

Ümumiyyətlə, Qarabağ bölgəsində 4 min meqavatdan çox günəş, 500 meqavatadək külək enerjisi potensialının mövcudluğu qiymətləndirilib. Kiçik su elektrik stansiyalarının inventarlaşdırılması işinə də başlanılıb. İlkin məlumatlara görə, 30-a yaxın bu cür stansiya yararsız hala salınıb. Prezident, Ali Baş Komandan İlham Əliyev Güləbird kəndindəki çıxışında su elektrik stansiyalarının tikintisi ilə paralel olaraq, azad edilən bütün digər torpaqlarda bərpaolunan enerji növlərinin və yerlərin müəyyənləşdirilməsi prosesinə start verilməsi ilə bağlı artıq göstəriş verdiyini də vurğulayıb.

Qarabağ bölgəsində bərpa-quruculuq prosesi vahid mərkəzdən idarə edilməklə ardıcıllıqla həyata keçirilir. Keçmiş məcburi köçkünlərin doğma yurdlara qayıdışı üçün əvvəlcə ərazilər minalardan təmizlənir, erməni vandallarına qarşı beynəlxalq səviyyədə təzminat davasının açılması üçün onların vurduqları ziyanın qiymətləndirilməsi diqqət mərkəzində saxlanılır, lazımi inventarlaşdırma, pasportlaşdırma işlərinin aparılmasına xüsusi önəm verilir. Eyni zamanda, nəqliyyat in-frastrukturunun bərpası, ilk növbədə, avtomobil yollarının çəkilməsi üçün müvafiq layihələr reallaşdırılır. Füzulidən Şuşaya çəkilən 101,5 kilometrlik “Zəfər yolu”nun salınması, Göygölün Toğanalı kəndindən başlayaraq, Murovdağ silsiləsini keçməklə Kəlbəcər-İstisu, Kəlbəcər-Laçın istiqamətində magistralın çəkilişi, Füzuli Beynəlxalq Hava Limanının tikintisi, habelə Horadiz–Ağbənd dəmiryolu xəttinin təməlinin qoyulması bunun bariz ifadəsidir.

Erməni vandalları tərəfindən Qarabağın ekologiyasına, su təsərrüfatına, meliorasiya sisteminə də ağır zərbə vurulub. Suqovuşan Hidroqovşağı və oradan su götürən Tərtərçay magistral kanalları yararsız hala salınıb. Bununla bağlı bərpa-quruculuq işlərinin aparılması üçün tədbirlər proqramı hazırlanaraq, artıq hökumətə təqdim edilib.

Proqramın əsas məqsədi uzun illər erməni təcavüzünə məruz qalan suvarılan torpaqların kənd təsərrüfatında istifadəsinə şərait yaratmaqdır. Sonrakı mərhələdə isə bu obyektlərin müasir səviyyədə yenidən qurulması və inkişafına nail olmaqdır.

Hazırda işğaldan azad edilən ərazilərdə sektorlar üzrə investisiya qoyuluşu, həmçinin investorların cəlb edilməsi ilə bağlı məsələlər araşdırılır. Şuşa və bir neçə yaşayış məntəqəsi istisna olmaqla qalan bütün ərazilərin həm sosial şərtləri, həm də iqtisadiyyatının sıfırdan qurulması nəzərdə tutulur. Şübhəsiz ki, belə bir prosesin həmin ərazilərin reabilitasiyasından sonra həyata keçirilməsi məqsədəuyğun sayılır.

Ermənistanın hərbi təcavüzündən azad olunan 1,7 milyon hektar Azərbaycan ərazisinin əksər hissəsi müxtəlif növ kənd təsərrüfatı məhsullarının becərilməsi üçün yararlıdır. Həmin məhsulların emalı yeyinti sənayesində yeni güclərin yaranmasına, etibarlı təchizat bazasının formalaşdırılmasına imkan verəcəkdir. Ona görə də təbii ehtiyatlara əsaslanan sənaye müəssisələrinin qurulması, aqrar potensial nəzərə alınmaqla, iri emal sənayesi komplekslərinin yaradılması bu yaşayış məntəqələrinə qayıdan sakinlərin sosial şəraitinə, həyat tərzinə əsaslı təsir göstərəcək.

Təbii ki, bu prosesdə dövlətlə bərabər, özəl sektor da fəal iştirak edəcək. Xüsusilə, xarici investorların cəlbi istiqamətində müəyyən imtiyazlar müəyyənləşdiriləcək, vergi-gömrük sistemində müvafiq güzəştlərinin tətbiqinə önəm veriləcək. Bir sözlə, gerçəkləşdiriləcək strateji proqramda iqtisadi islahatlardan, mülkiyyət toxunulmazlığına zəmanətdən tutmuş məhkəmə münaqişələrinin ədalətli həllinə qədər bütün məsələlər öz ifadəsini tapacaq.

Beləliklə, Azərbaycan Prezidentinin rəhbərliyi ilə işğaldan azad edilən Qarabağ torpaqları iqtisadiyyatımızın daha sürətli inkişafı üçün yaxın gələcəkdə yeni potensial imkanları genişləndirəcək, Azərbaycan iqtisadi göstəricilərinə görə regionun lideri mövqeyini möhkəmləndirəcək.

***Vaqif BAYRAMOV,***
***“Xalq qəzeti”***